*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 3*
*Səhifə: 113-119*
*http://dx.doi.org/10.59849/2663-4406.2024.3.113*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# XX əsrin əvvəllərində Azərbaycan poeziyası və Füzuli ədəbi məktəbi

**Cavidə Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: cavi_e@yahoo.com

**Annotasiya.** Məqalədə XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında klassik üslubda yazılan əsərlərdən bəhs edilir. Qeyd olunur ki, bu dövrdə klassik janrlarda yazılan əsərlər daha çox Məhəmməd Füzulinin şeirlərinin təsiri ilə qələmə alınmışdır. Problemin aydın izahı üçün məqalədə M.Füzuli yaradıcılığından təsirlənən şairlərin əsərləri məzmununa görə təsnif edilmişdir. Müxtəlif şairlərin yaradıcılığı əsasında M.Füzuli poeziyasının XX əsr şeirinə təsirləri izah edilir. H.Cavidin, Ə.Yusifin, S.Mənsurun, Ə.Vahidin və başqa şairlərin əsərlərinin M.Füzuli poeziyası ilə müqayisəli təhlili söyləməyə əsas verir ki, Füzuli ədəbi məktəbi XX əsrin əvvəllərinə qədər fəaliyyətini aktiv şəkildə davam etdirmişdir. Müasir Azərbaycan şeirinin poetik keyfiyyətlərinin, ideya mahiyyətinin formalaşmasında M.Füzuli şeirinin böyük təsiri olmuşdur.
**Açar sözlər:** poeziya, Füzuli, Cavid, Vahid, Yusif, Mənsur

**Məqalə tarixçəsi:** göndərilib – 17.05.2024; qəbul edilib – 29.05.2024

# Azerbaijani poetry and the Fizuli literary school in the early 20th century

**Javida Mammadova**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: cavi_e@yahoo.com

**Abstract.** The article discusses poems written in the classical style in Azerbaijani literature at the beginning of the 20th century. It is noted that the works written in classical genres during this period were mostly written under the influence of Mahammad Fuzuli's poems. In order to explain the problem clearly, the article classifies the poems of the poets who were influenced by Fuzuli's works according to their content. The influence of Fuzuli's poetry on 20th century poetry is explained through the works of various poets. A comparative analysis of the works of H.Javid, A.Yusif, S.Mansur, A.Vahid and other poets with Fuzuli's poetry gives reason to say that the Fuzuli literary school continued its activities until the beginning of the 20th century. M.Fuzuli's poetry had a great influence on the formation of poetic qualities and ideological essence of modern Azerbaijani poetry.
**Keywords:** poetry, Fuzuli, Javid, Vahid, Yusif, Mansur

**Article history:** received – 17.05.2024; accepted – 29.05.2024

## Giriş / *Introduction*

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı həm yeni yaradıcılıq prinsiplərinə, həm də klassik ədəbiyyatımızın ənənələrinə əsaslanaraq inkişaf etməkdə idi. Şairlərin bir qismi əruz vəznində, klassik şeir janrlarında yazmaqda, M.Füzuli ədəbi məktəbinin prinsiplərini davam etdirməkdə idilər. Bu baxımdan, sözügedən dövrdə yaranan ədəbi nümunələri müxtəlif problemlər əsasında tədqiq etmək mümkündür və bunlardan bəzisini belə təsnif etmək olar:

1. Milli məfkurəni, böyük milli birlik idealını ifadə edən əsərlər.
2. Avropa ədəbiyyatında aktual olan problemləri, forma və məzmun keyfiyyətlərini, Qərb ədəbiyyatı ilə bəzi ortaq ədəbi-fəlsəfi düşüncələri ehtiva edən əsərlər.
3. Klassik Azərbaycan poeziyasının ənənəvi keyfiyyətləri əsasında yaranan əsərlər.

Birinci qrupa H.Cavidin, Ə.Cavadın, A.Şaiqin və b. şair və yazıçıların türkçülük düşüncəsini, milli birlik idealını ifadə edən əsərlərini nümunə göstərmək olar.

İkinci qrupa aid etdiyimiz əsərlər isə sözügedən dövrdə Avropa ədəbiyyatı üçün aktual olan bəzi problemləri ehtiva etməkdə, hətta mövzu, məzmun, bəzi fəlsəfi düşüncələr baxımından da Qərb ədəbiyyatı ilə ortaq mövqe nümayiş etdirməkdədir. H.Cavid, M.Hadi, C.Məmmədquluzadə, Ə.Haqverdiyev də daxil olmaqla bəzi yazıçı və şairlərin əsərləri insan və ictimai mühit, insan varlığının mahiyyəti – onun duyğu və düşüncələri, ruhi-mənəvi aləmi, şəxsiyyətin ictimai mühit və özü ilə münasibəti məsələlərinin bədii əksi çərçivəsində Avropa ədəbiyyatı ilə ortaq keyfiyyətlər və bədii-fəlsəfi düşüncə sərgiləməkdədir. Avropa və Azərbaycan ədəbiyyatında bu ortaq prinsiplərin meydana gəlməsini zəruri edən bir neçə mühüm amil əhəmiyyət daşımaqdadır.

Üçüncü qrupa daxil olan əsərlər isə klassik poeziyamızın əsas ideya-məzmun xüsusiyyətlərini və poetikasını ehtiva etməkdə, orta əsrlər milli şeirimizdəki ənənəvi obrazları və motivləri sərgiləməkdədir. Bu əsərlərin müəllifləri daha çox Məhəmməd Füzuli yaradıcılığını əsas götürərək klassik şeirin müasir nümunələrini yaratmaqdaydılar.

## Əsas hissə / *Main part*

### XX əsrin əvvəlləri Azərbaycan şeirində Məhəmməd Füzuli poeziyasının təsirləri

XX əsrin əvvəllərində klassik Azərbaycan poeziyasının ənənəvi keyfiyyətləri əsasında yaranan əsərlərdə daha çox orta əsrlər ədəbiyyatının poetikası, fəlsəfi məzmunu və janr xüsusiyyətləri yer almaqdadır. Həmin əsərləri konkret olaraq bir neçə qrupda təsnif etmək mümkündür:

a) Orta əsrlər Azərbaycan şeirinin ənənələrinə əsaslanan, yəni klassik üslubda yazılan şeirlər. Bura dövrün bir çox tanınmış şairlərinin, o cümlədən Muxtar Bisavadın (1847-1938), Əbdülxalıq Cənnətinin (1855-1931), Ağadadaş Müniririnin (1863-1940), Azər Buzovnalının (1870-1951), Hüseyn Cavidin (1882-1941), Əliağa Vahidin (1895-1965) və b. əsərləri daxildir.

b) Azərbaycan təsəvvüf şeirinin ənənələri əsasında yazılan, təsəvvüf fəlsəfəsinin mahiyyətini, təsəvvüf metafizikasına dair bilgiləri simvolik şəkildə ifadə edən əsərlər. Bura əsasən, Hüseyn Cavidin, Əliağa Vahidin, Əbdülxalıq Yusifin (1853-1924) və b. əsərləri daxildir.

c) M.Füzulinin əsərlərinə yazılan təxmislər. Səməd Mənsurun (1879-1927), Məmmədəli Şəfainin (1890-1967) və digərlərinin yazdığı təxmislər buna nümunə ola bilər.

Sözügedən şairlərin və onların digər müasirlərinin əsərlərində M. Füzuli yaradıcılığının təsiri aydın görülməkdədir. Belə əsərlər üçün M. Füzuli şeirinin poetikası, üslubu, motiv və ifadə formaları səciyyəvi xüsusiyyətlərdəndir. Məsələn, M. Füzuli poeziyasının bir sıra motivləri H.Cavidin əsərlərində özünəməxsus şəkildə yer alır. H.Cavidin qəzəllərindəki lirik qəhrəmanlar M.Füzuli yaradıcılığından bizə tanış olan aşiq obrazlarına çox bənzəyir. Klassik ədəbiyyatımızda kədər hissinin tərənnümü ilə bədii-fəlsəfi ideyaların təqdim edilməsi də ənənəvi motivlərdən biridir





və M.Füzuli kədəri H.Cavid poeziyası üçün də olduqca səciyyəvidir. Başqa sözlə desək, kədər hissinin M.Füzuli yaradıcılığındakı bənzərsiz tərənnümü sonralar məhz H.Cavid yaradıcılığında təkrarsız şəkildə əksini tapır. Görkəmli alim M.Əlioğlu H.Cavid yaradıcılığındakı kədərin iki istiqamətə ayrıldığını izah edərək yazır: "Kədər motivi H.Cavid lirikasında, əsasən, iki istiqamətdə işlənmişdir. "Müqəddəs insani kədəri", "bəşəri kədəri", yaxud varlığı dərk etməkdə əqlü zəkanın, real düşüncənin əlaməti kimi təzahür edən böyük və mənalı kədəri bu istiqamətlərdən birincisi kimi qəbul etmək olar. Konkret insan surətlərində və onların mənəvi-ruhi varlığında, intibah və düşüncəsində kədərin doğurmuş olduğu əhvali-ruhiyyənin, müqəddəs əzablara susayan "ürfan əhlinin" təsviri bu istiqamətlərdən ikincisini ifadə edir" [5, s. 17]. Füzuli poeziyasının ruhuna hakim olan kədər, qeyd olunduğu kimi, şairin görüşlərinin, tapındığı müqəddəs idealın şərhinə yol açan mövzulardan biridir. Kədər hissinin M.Füzuli yaradıcılığındakı bənzərsiz tərənnümü H.Cavid yaradıcılığında da əksini tapır.

*"Dost bipərva, fələk birəhm, dövran bisükun*
*Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun"* [8, s.243]

– deyə dərdin çoxluğundan, həmdərdin yoxluğundan şikayətlənən Füzuli kimi H.Cavidin:

*"Bir əhli-dərd yoxdu bu viranə şəhrdə,*
*Tainki kəşf edim ona mən hali-zarimi"* [2, s. 65]

– gileyi də zamanın zahiri və daxili mənzərəsini təqdim edərək həm də ictimai-siyasi məzmun daşımaqdadır. H.Cavid də dövrün "bisükun"luğundan, "küfrü haqq, cəhli mərifət" sanan imansız cəmiyyətin hələ ki, "qəvi" olduğundan şikayətlənir:

*"Dinləməz kimsə qəlbi, vicdanı,*
*Məhv edən haqlı, məhv olan haqsız..."* [3, s. 10]

M. Füzulinin lirik qəhrəmanı dostları bipərva, insanları bivəfa görür:

*"Vəfa hər kimsədən kim istədim ondan cəfa gördüm,*
*Kimi kim bivəfa dünyada gördüm, bivəfa gördüm".* [6, s. 83]

H.Cavid də:

*"Hər gülən üzdə ölüm, qan görürəm,*
*Pək yaxın dostları düşman görürəm"* [2, s. 151]

– deyə eyni kədəri yaşayır.

H.Cavidin və digər şairlərin əsərlərində təsəvvüf düşüncəsinin bədii əksetdirmə yolları, poetik dil, üslub xüsusiyyətləri M.Füzuli poeziyasından qaynaqlanmaqdadır. Belə əsərlərdə "eşq" mövzusu daha çox təsəvvüfi mənada yer alır. Məsələn, A.Buzovnalı əsərlərinin birində:

*"Zahid ki, göstərir mənə rahi-təriqini,*
*Bilməzmi rahi-eşq özü bir təriqədir"* [1, s. 259], – deyə yazır.

Bu dövrdə M.Füzuli ədəbi məktəbinin nümayəndələrindən biri də Ə.Yusifdir. Füzulinin yaradıcılığını örnək alaraq şeirlər yazan Ə.Yusifin əsərləri həm mövzu və məzmunu, həm də üslub,

ifadə xüsusiyyətləri baxımından diqqət çəkir. Belə ki, bu şairin yaradıcılığında poetik ifadələr, o cümlədən bir çox mübaliğələr, müxtəlif bənzətmələr və nümunələr M.Füzuli yaradıcılığından hazır şəkildə alınmışdır ki, bu xüsusiyyət də Ə.Yusifin şeirlərini müasirlərinin şeirlərindən fərqləndirir. Məsələn, Füzuli yazır:

*"Kuhkən künd eyləmiş min tişəni bir dağilən,*
*Mən qoparıb salmışam min daği bir dırnağilən".* [8, s. 256]

Ə.Yusif yazır:

*"Bir dağə vurdu tişəni Fərhad o vaxt əgər,*
*Min dağ gizlənib bu dili-dağidaridə".* [4, s. 40]

Yaxud, M.Füzuli "Məndə Məcnundan füzun aşiqlik istedadı var" – yazır. Yusif də:

*"Hicran əlindən ani ki, mən çəkmişəm yəqin*
*Məcnun vətəndə çəkmədi, Mənsur dardə"* [4, s. 40].

Ə.Yusif də M.Füzulinin "kuhkən" və s. simvolik məna daşıyan obrazlarından istifadə edərək lirik qəhrəmanı, daha doğrusu, təsəvvüfün arif insanını xarakterizə etmişdir. Şairin yaradıcılığından bu kimi çox nümunələr göstərmək olar. Başqa sözlə, XX əsrin əvvəllərində M.Füzuli məktəbinin nümayəndəsi olmaqla yanaşı, Ə.Yusif bu məktəbi yaşadan və inkişaf etdirən əsas şairlərdən biri olmuşdur.

Sözügedən dövrdə M.Füzuli yaradıcılığından bu şəkildə bəhrələnən şairlərdən biri də Ə.Cənnətidir. O da Ə.Yusif kimi Füzuli yaradıcılığından hazır ifadələr alaraq şeirlərinin ideya və ilham qaynağını açıq şəkildə bəyan edir. Şairin belə əsərlərindən biri "Söz" qəzəlidir ki, mətlə beytində sözü M. Füzuli kimi "lələ-i-şəhvar" adlandırır:

*"Guş-huşum bir sədəfdir, lələ-i-şəhvar söz,*
*Zövq alır ruhum yetişcək guşimə həmvar söz.*
*... Söz qanan azdur ki, qanlar seyl tək olmuş rəvan,*
*Çox deyil, ey Cənnəti, gər olsa bimiqdar söz".* [4, s.61]

Yaradıcılığında M.Füzuli şeirinin ruhunu yaşadan şairlərdən biri də Ağadadaş Müniridir. Onun "Sevər" rədifli qəzəli M.Füzulinin müxtəlif şeirlərindən aldığı ifadələrlə xüsusi maraq doğurur. Belə ki, M.Füzulinin:

*"Canı kim cananı üçün sevsə, cananın sevər,*
*Canı üçün kim ki, cananın sevər, canın sevər"* [8, s.108]

– misralarındakı mənanı A.Müniri belə ifadə edir:

*"Ey könül, aşiq olan can ilə cananı sevər*
*Hərgiz aşiq demək olmaz ona kim canı sevər".* [4, s.90]

Bu qəzəldə şair həm də M.Füzulinin başqa bir qəzəlindən də fikir və ifadə alaraq yazır:





*"Canı canan diləsə" hiç diriğ etməməli*
*Nə ki canan sevər, əlbəttə, könül anı sevər".* [4, s.90]

Məlumdur ki, Ə.Vahidin qəzəllərində Füzuli şeirinin təsiri aydın şəkildə görünür. Lakin Ə.Vahidin şeirləri təkcə poetik xüsusiyyətləri baxımından deyil, həm də bədii-fəlsəfi mahiyyəti nöqteyi-nəzərdən də Füzuli poeziyasından bəhrələnmişdir. Təsəvvüf fəlsəfəsini əks etdirən şeirlərində Ə.Vahid M.Füzulinin qələmə aldığı təsəvvüf simvollarından istifadə etmişdir. H.Cavidə həsr etdiyi bir şeirində Ə.Vahid yazır:

*"Biz bir qatar tutiyi-şirin suxənlərik,*
*Öz nəğməmizlə zinəti-sərvi-çəmənlərik...*
*Bir kimsə bilməyir nə xərabatilərdənik,*
*Meyxanələr müsafiri rindi-kühənlərik...*
*Lövh üzrə pirimiz bizi yazmış şahidi-eşq,*
*Meydani-ədli-dadidə gülgün kəfənlərik.*
*Cavid həmişə xəlqimizin xatirindədir,*
*Vahid, o yoxsa, ruhi ilə həmvətənlərik".* [10, s. 119]

H.Cavidin bir şəhid olduğuna, Cənnətə getdiyinə işarə edən şair özlərini də onun "həmvətəni" adlandıraraq Allah hüzurunun mömin ruhların vətəni olduğunu ifadə edir. "Allahdan gəldiyimiz və ona dönəcəyimiz" üçün mömin insanın Vətəni, əslində, Cənnətdir. "Bu məna və bu mənanı ifadə edən "vətən" kəlməsi XX əsr poeziyamıza Füzuli yaradıcılığından gəlmədir. Vahid bunu söyləməklə Füzulinin:

*"Edəməm tərk, Füzuli, səri-kuyin yarın,*
*Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!"* [8, s.216]

– misralarındakı bu mənanı ateist sovet cəmiyyətində böyük cəsarətlə ifadə etmişdir" [7, s.112] və fəxrlə özünü "böyük Füzulinin yadigarı" [10, s.221] adlandırmışdır.

Poeziyamızda maraqlı məsələlərdən biri də M.Füzulinin əsərlərinə yazılan təxmislərdir. Bunların içərisində M.Füzulinin:

*"Pənbeyi-daği-cünun içrə nihandır bədənim,*
*Diri olduqca libasım budur, ölsəm kəfənim"* [8, s.216]

– mətlə beyti ilə başlayan qəzəlinə yazılan təxmislər xüsusilə diqqət çəkir. Məsələn, S.Mənsur və M.Şəfai böyük şairin bu qəzəlinə ustalıqla təxmis yazmışlar.

S.Mənsur:

*"Gəl-gəl, ey laləruxün, bülbüli-şirin süxənim*
*Ömr bağında xəzan oldu gülüm, yasəmənim*
*Çak-çak oldu qəza tiği ilə bəs ki tənim*
*"Pənbeyi-daği-cünun içrə nihandır bədənim*
*Diri olduqca libasım budur, ölsəm kəfənim"* [9, s.20],

M.Şəfai isə:

*"Eşq divanəsiyəm, bişələr olmuş çəmənim",*
*Rişteyi-eşq ilə zəncirlənib nəxl-tənim.*
*Xaricəm əql qəmindən, nə qəmim var mənim,*

*"Pənbeyi-daği-cünun içrə nihandır bədənim*
*Diri olduqca libasım budur, ölsəm kəfənim".* [4, s. 234]

– deyə M.Füzulinin sözügedən qəzəlinə təxmisi bu bəndlərlə başlamışlar. Hər iki şair klassik şeirin prinsiplərini gözləməklə yanaşı, M.Füzuli yaradıcılığındakı mənanı, ifadə tərzini də qorumağa çalışmışdır. Heç də asan olmayan və şairdən xüsusi istedad və savad tələb edən təxmisə müraciət edilməsi bir daha XX əsrin əvvəllərində M.Füzuli poeziyasının öz aktuallığını qoruduğunu və müasir poeziyaya ciddi təsirini göstərməkdədir.

## Nəticə / *Conclusion*

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı bir sıra yeni keyfiyyətlər qazansa da, forma və məzmun, ideya baxımından yeniliklərə sahiblənsə də, ənənəvi prinsiplərinə sadiq qalaraq klassik ədəbiyyatın təməlləri üzərində inkişaf etməkdə idi. Yəni Avropa ədəbiyyatı üçün aktual olan bir çox problemlər, mövzular, bir sıra görüşlər Azərbaycan ədəbiyyatında yer alsa da, bütün bu məsələlər milli ədəbi-fəlsəfi düşüncələr əsasında, milli-dini dəyərlər çərçivəsində bədii həllini tapır. Lakin bunlarla bərabər, dövrün poeziyasının digər bir istiqaməti sırf klassik şeir ənənələri əsasında yaranmaqda, klassik Şərq şeirinin formalarını sərgiləməkdə, təsəvvüf düşüncəsini ifadə etməkdə, insan və yaradan, insan və həyat, iki dünya həqiqətləri və s. problemlərə işıq tutmaqda idi. Bütün bu əsərlərin həm poetik, həm də fəlsəfi fikir qaynağı daha çox Məhəmməd Füzuli yaradıcılığı idi. Bu baxımdan, yaradıcılıqları haqqında bəhs etdiyimiz şairlər Füzuli yaradıcılığının timsalında orta əsrlər ədəbi ənənələrini, klassik şeirin fəlsəfi məna dərinliyini, humanist mahiyyətini, poetik xüsusiyyətlərini saxlamağa, klassik poeziyanın müasir nümunələrini yaratmağa nail olmuşlar. Bu şairlərin yaradıcılığı zamanında siyasi təzyiqlərə məruz qalmasına baxmayaraq, klassik ədəbiyyatımızın ənənələrini davam etdirdiyinə, orta əsrlər dövrü poeziyamızın məna əsasını təşkil edən dini-fəlsəfi ideologiyanı özünəməxsus şəkildə qoruyub saxladığına görə Füzuli ədəbi məktəbinin əhəmiyyətli nümunələrindəndir.

## Ədəbiyyat / *References*


1. Buzovnalı, A. Seçilmiş əsərləri. – Bakı: Boz Oğuz – Nicat, 1996.
2. Cavid, H. Əsərləri: 4 clddə, I c. – Bakı: Yazıçı, 1982.
3. Cavid, H. Əsərləri: 4 cilddə, III c. – Bakı: "Yazıçı", 1984.
4. Deyilən söz yadigardır (Tərtib edən: Cəfər Rəmzi İsmayılzadə). – Bakı: Yazıçı, 1981.
5. Əlioğlu, M. Hüseyn Cavidin romantizmi. – Bakı: ADN, 1975.
6. Füzuli. Leyli və Məcnun. – Bakı: Gənclik, 1977.
7. Memmedova, C. "XX yüzyılın başlarında Azerbaycan edebiyatında tasavvuf felsefesi". Sadreddin Konevî "Tasavvuf, Felsefe ve Din". III Uluslararası Sadreddin Konevi Sempozyumu bildiriler kitabı. – Konya: Necmettin Erbakan Üniversitesi, 2018.
8. Məhəmməd, F. Əsərləri. 6 cilddə, I c. – Bakı: Şərq-Qərb, 2005.
9. Mənsur S. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2006.
10. Vahid Ə. Seçilmiş əsərləri. – Bakı: Lider Nəşriyyat, 2005.






## Азербайджанская поэзия и литературная школа Физули в начале 20 века

**Джавида Мамедова**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: cavi_e@yahoo.com

**Резюме.** В статье рассматриваются произведения, написанные в классическом стиле в азербайджанской литературе начала XX века. Отмечается, что произведения, написанные в классических жанрах в этот период, в основном были написаны под влиянием поэзии Мухаммеда Физули. Для наглядного объяснения проблемы в статье классифицируются по содержанию стихи поэтов, испытавших влияние творчества Физули. Влияние поэзии Физули на поэзию XX века объясняется на примере творчества различных поэтов. Сравнительный анализ творчества Х.Джавида, А.Юсифа, С.Мансура, А.Вахида и других поэтов с поэзией Физули дает основание утверждать, что литературная школа Физули продолжала свою деятельность вплоть до начала XX века. Поэзия М.Физули оказала большое влияние на формирование поэтических качеств и идейной сущности современной азербайджанской поэзии.
**Ключевые слова:** поэзия, Физули, Джавид, Вахид, Юсиф, Мансур